## Gecə yarı qapıları döyməyin...

Gecəyarı qapıları döyməyin, -
Ürək var ki, tıqqıltıyla dayanar.
Gecəyarı qapıları döyməyin –
Yetim var ki, möcüzəyə inanar...

Gecəyarı qapıları döyməyin, -
Ata var ki, yuxu bilməz həsrəti,
Ana var ki, namaz üstə yaşayır,
Oğul var ki, başa çatıb xidməti...

Gecəyarı qapıları döyməyin, -
Bir mö`cüzə saxlayıbsa səni sağ,
Bu dünyadır : Vallah, billah bilinməz –
Qapı açıb kim qarşıya çıxacaq?!

Gecəyarı qapıları döyməyin, -
Haradasa "Ev yiyəsi" deyən var.
Gecəyarı evinizə tələsin, -
Bəlkə sizin qapını da döyən var.

Rüfətoğlu Z.  Gecəyarı qapıları döyməyin... : şeir // Azərbaycan. – 1994. –  16 mart. - S. 4.